# Şair məhəbbəti



*Əlibala RƏHİMOV,*
*araşdırmaçı-jurnalist*

**Yarım əsrdən artıq zaman kəsiyində publisistika ilə mütəmadi, dayanıb durmadan məşğul olan, söz əkib, söz becərən mənciyəz tam məsuliyyətlə deyirəm: Biləsuvarın mətbuat tarixini vərəqləmək, ömrünü-gününü qədim diyarımızın salnaməsini ilk yardan bir işıqlı insanı xatırlayıb, bu günə gətirməyi özümə mənəvi borc bilirdim. Xeyli vaxt idi ki, axtarışım səmərəsiz qalırdı.**

Soykökü yerli olan 106 yaşlı Səftər Qurbanovla həmsöhbət olmaq istədim. Heyhat, alınmadı. Onun yaddaşında nə var ki,...Nərimankənddə dünyaya göz açıb, orda yaşayıb. Heç rayon mərkəzini, kəndləri yaxşı tanımır. ..Çöl-bayır adamı olub, keçmiş haqqında deyəcək sözü, heç olmazsa, mənə ipucu verən 5-3 kəlməsi belə yoxdu.

Bilirsiniz kim canlanır düşüncələrimdə? Kimin obrazını yaratmaq istəyirəm? Hüseyn Natiqin!

### *Tarixə əl uzadıram*

Ölkənin hər yerində rayonlar yaranır və 1930-cu il avqustun 8-də mərkəzi Puşkin kəndi olmaqla Biləsuvar "anadan olur". O zaman 12,5 min nəfər əhalimiz var idi. 8,5 mini rus, 4 mini azəri türkü və 1931-ci ildə ilk mətbu orqan-"Krasnıy xlopkorob" ("Qırmızı pambıqçı") qəzeti nəşrə başlayır. Həftədə bir dəfə şənbə günü çıxan çox kiçik formatlı qəzetin bu üzü rusca, arxa üzü Azərbaycanca-latın dilində. İlk redaktor Bakıdan göndərilən Hüseyn Natiq!

Könül dostlarımdan birinin məsləhəti ağılıma batdı və elə səhərisi M.F.Axundov küçəsində yaşayan, Böyük Vətən Müharibəsinin iştirakçısı, qocalıqla qolboyun olan Aerodrom Mustafa kişi ilə görüşdüm. Ötən əsrin 30-40-cı illəri onun yaddaş cədvəlindən silinməyib hələ. Qırıq-qırıq, asta-asta söylədi:

Bizdən çox uzaqda olmayan, yolun o üzündə, indiki yaşayış evinin yerində raykom yerləşirdi. Səhv etmirəmsə, birinci katib Əhməd Qasımov idi. Raykomun bir otağında redaksiya yerləşirdi. "Qırmızı pambıqçı" qəzeti çıxırdı. Onun redaktoru Bakıdan gəlmişdi. Hüseyn adlı cavan oğlan. Tanıyırdım onu. Hündür boylu, gözəl, yaraşıqlı, şən gülümsər, zarafatcıl, tanıdı-tanımadı, hər kəslə əl verib görüşərdi. Həftədə bir dəfə qəzetini qoltuğuna vurub, kimi görsə verərdi. Ruslar onun təzə qəzetini oxuyardılar, azərbaycanlılar şəklinə baxardılar. Siyasəti, iqtisadi və mədəni həyatı, ən çox raykomun iclaslarını işıqlandırardı Hüseyn.

**Mustafa kişinin nəzərləri uzaqlara dikilmişdi. Nə barədəsə düşünürdü. Qabağındakı çaydan bir qurtum içdi, sonra qırıq, qırıq, asta-asta dedi:**

**Balaca döyüldüm, ağlım söz kəsirdi. Qağamla anamın söhbəti yadıma düşür. Axşamlar hündür boylu, yaraşıqlı bir cavan oğlan gəlib biz tərəflərdən o yana gedir-dedi-anam.**

Qağamın qaşları çatıldı, hirsləndi?

Hə, nə olsun, qapının ağzında durub, yolnan gedənlərdən soruşmalıyıq ki, sən kimsən, nə işin sahibisən, hara gedirsən?

Yox ey, arvadlar xısınlaşır ki. Raykomda işləyən, qəzeti çıxardan o cavan gəlib, bu yanda gecələr ayın aydınlığında bir qızla görüşür, bir-birlərinin əlindən tutur, qucaqlaşır, öpüşürlər.

Arvadların işi-gücü qurtarıb tay, onunbunun arxasınca qeybət qırmağa söz axtarır, milçəyi böyüdüb fil eyləyirlər. Sən elə şeylərə fikir vermə. Nə işinə qalıb, kim hardan gəldi, hara getdi? Söz başuva qəhətdi?

Sonra nə düşündüsə qağam gülümsədi:

Bə yadında döyül, mənim nə itim azmışdı ki, gecələr elə sizin evin həndəvərində gəzirdim. Hər ikisi bir-birinə baxdılar və şaqqanaq çəkərək ucadan güldlər.

### *Keçid alıram həmişə*

mənə hədsiz sədaqət göstərən öz yaddaşıma. O, dostumdur. Hələ indiyə kimi bivəfa çıxmayıb mənə, ikimiz birlikdə əl-ələ, nəfəs-nəfəsə verərək qayıdırıq ən azından 40 il əvvələ...

Dövrün salnaməsini yaradan "Məhsul"un məsul katibiyəm. Redaksiya keçmiş kənd təsərrüfatı idarəsinin binasında yerləşir.

Buludlu, çiskinli bir payız səhəri isə gələndə hündür boylu, ağ əndamlı, gözəl, yaraşıqlı, yaşlı bir qadınla qarşılaşıram. Gözləmədiyim halda o, qabağa keçib salamsız-kalamsız soruşur:

**Harda işləyirsən, cavan oğlan?**

**Əlimi sola uzadıram:**

**Bax orda, redaksiyada.**

Heç nə demir, dərindən köks ötürür, ah çəkir, əlindən tutduğu oğlan uşağınıya nəvəsini, ya nəticəsini səsləyir:

Gözümün işığı, yeri, dərsə gecikmə, deyib, yoluna davam eləyir.. Özlüymdə, yəqin Nizami adına məktəbə aparır uşağı-fikirləşirəm.

Yadımda deyil. İki ay, yoxsa ay sonra həmsöhbət olduq, soruşdu:

**Sən yenə qəzetdəsən?**

**Bəs hara gedim?**

Yox ey, məqsədim başqadı. Bilməmiş olmazsan, Sizin qəzet qabaqlar "Qırmızı pambıqçı" olub. Onun redaktoru var idi-Hüseyn Natiq! Mənim ilk sevgim. Teztez gecələr görüşürdük. Yadıma düşəndə, ürəyim ağrıyır. İlahi o, məni necə sevirdi....15 yaşım var idi onu görəndə. Dedim, qismətimdi, taleh yazımdı. Xoşbəxtəm, Fələyin üzü dönsün oxum daşa dəydi. Onu unutmaq çətindir. Hər gecə yuxudaa görüşürük. Mənə şeir deyir, saçıma sığal çəkir, qucaqlayıb üzümdən, gözümdən öpür.

### *O danışır,*

ürək sirrini açır, mən öz aləmimdəyəm.: Yaşı 80-ni ötüb. Amma necə də gözəldi, yaraşıqlıdı. Heç Leyla Bədirbəyli onun əlinə su tökməyə layiq deyil!

Dil boğaza qoymur, yolnan gəlib gedənləri heç vecinə almır:

Hitlerin balası ölsün, necə ki, özü də, nəsli-nəcabəti də it kimi gəbərdi. Müharibə başlandı. Hüseyn könüllü olaraq getdi cəbhəyə..Məni gözlə Gülü, əsl adımı deməzdi, qayıdıb gələcəm, bir "birlikdə olacağıq, evlənəcəyik". Dava qurtardı, o gəlmədi...15 il gözlədim 30 yaşım var idi. Ailə qurum deyə birisinə ərə getdim. Oğlum, qızım, gəlinim, nəvələrim...Hamısı mənim üçün əzizdi, doğmadı, amma ürəyimdəki niskil silinməyib, ölənə kimi onu-Hüseyni unutmayacam. Bir axşam yuxuma gəlməsə, səhərisi işim düz gətirmir., heç nədən evdəkiləri söyürəm. Ərimi, o yazığı lap itdən alıb, itə verirəm. Dinmir, cavab qaytarmır. Sonra peşiman oluram, özüm-özümü qınağa çəkirəm.

Nə fikirləşirsə deyir:

**Bax, mənim bu söz-söhbətimi, sirrimi heç kimə danışma ha! Biabır olaram. 5 il bundan öncə 89 yaşında dünyasını dəyişdi. Hüseynlə olmuş sevgisini də özüylə apardı qəbir evinə. Yas təziyəsinə getmişdim. Nə gizlədim, mən bilərəkdən, qəsdən ömü boyu iç dünyasında Hüseyn sevgisi yaşadan o qadının adını dilimə gətirmək istəmirəm. Bir az ehtiyatlanıram. Nəvənəticələri nənələrini rüsvay etdiyinə görə məni məşhər ayağına çəkməzlərmi??**

"Həri-həri, vaxsey-vaxsey" kimi ləhcəylə danışan Hüseyn görürdü, hiss edirdi ki, şəhər qızları bu gün birinə, sabah başqasına meyl salır, oğlanların qoluna girir, hətta bəzən restoranlara da gedirlər. Rayonda isə başqa mənzərə var, bir az açığı, mənəvi-əxlaqi dəyərlər şərti şəkildə qorunur. Hüseyn ruhən, fitrətən şair idi. Onun fikrincə, sevgi, bu ilahi eşq əbədidi, fədakarlıqdı, sonsuzdu. Kim həyatı, təbiəti, insanları sevirsə, demək, o, xoşbəxtdir. Hüseyn bilirdi ki, məhəbbət insanı əldən salan xəstəlikdir, amma onun dərmanı, əlacı da elə özündədir.Bu arzu olunan mərəzdir və xəstə heç zaman əzablarından qurtulmaq istəmir.

M.Fizuli-"var bir dərdim ki, çox dərmandan artıqdır mənə.Qoy məni dərdimlə, dərman eyləmə, ey həkim"-deyir.

Alman şairi Henrix Heyne "məhəbbət qəlbin diş ağrısıdır." söyləyirdi. Böyük mütəfəkkir Əli bəy Hüseynzadənin fikri də gözəldi, mənalıdır. "Nicat məhəbbətdədir".

**Gülü ilə, onun sevgisini özüylə qəbir evinə aparan qızla hər görüşüb ayrılanda ürəyindən nalə, haray qopur və özündən xəbərsiz şeir deyirdi. Hüseyn yaşadığı otağa daxil olan kimi, qələmi götürüb, o şeiri kağıza yazırdı.**

**Gündüz adamlarla ünsiyyət, iş-güc, yazı-pozu, gecələr isə... Gecələr onun idi, sevən, sevilən aşiqin.**

### *Gözəllər çoxdu*

amma düşüncəsinə görə, bu dünyada bir gözəl vardı, sinəsinə baş qoyduğu, ürəyinin döyüntüsünü eşitdiyi onun Gülüsü...Ay da həsədlə baxırdı onlara! Zamanında Gülü -o qadın Hüseynin şeirlərindən bəzi misraları dilinə gətirirdi. Bir bəndi düşür yadıma:

**Öpsəm dodağından, eləcə öpsəm,**
**Öpüşlər məktub tək uçar Tanrıya,**
**Bir öpüş, bir ürək, bir qız dodağı**
**Çevrilər dünyanın xilaskarına.**

Təsadüfən, bu yaxınlarda əlimə Rasim Tağıyevin müharibəyə gedib-qayıtmayan şair və yazıçılardan bəhs edən "Süngüyə çevrilən qələm" kitabı düşdü. Çox da böyük olmayan bu əsəri "Elm" nəşriyyatı 1977-ci ildə yenidən çap eləmişdir. Orda göstərilir.

### *1912-ci ildə*

**Bakıda anadan olan Hüseyn Natiq 1931-ci ildə Biləsuvar rayonunda "Qırmızı pambıqçı" qəzetinin redaktoru olmuşdur. Onun "Buruqlar" adlı ilk kitabı 1931-ci ildə işıq üzü görüb. Ona müqəddiməni Mehdi Hüseyn yazıb. Sonralar H.Natiqin "Azər", "Vəzifəm", "Böyük Firdovsi", "Pambıqçılar", "Qızıl ordumuz" kimi kitabları çap edilərək ədəbi aləmə səs salmış və müəllifi geniş oxucu kütləsinə sevdirmişdir. Ü.Hacıbəyovun "Süvarilər" mahnısının sözləri də H.Natiqə məxsusdur.**

Mən Hüseynin ruhu qarşısında özümün mənəvi borcumu anlayıram. Onun obrazını çətinliklə olsa da yarada bildim, lakin şəklini həmyerlilərimə göstərməkdə aciz qaldım. Nə etməli? Yaşımdan çox-çox irəlini görə bilməzdim ki..

Mustafa kişinin sözlərinə inanaq, inanmamağa haqqımız yoxdur.

O, deyir: Hüseyn Natiqin boy-buxunu, yerişi-duruşu, baxışı, sifət cizgiləri, hətta gözlərinin rəngi də Mikayıl Müşfiqə oxşayırdı. Bu da son. Çox sevdiyim Biləsuvarın ilk salnaməçisi, şair Hüseyn Natiqin ruhuna salam göndərirəm.